


دوشنبه 13 اردیبهشت 1395 - 11:59

## Azrbaycanda dindarlarn mdafi komitsi yaradlr

Azrbaycan Ziyallar Birliyinin sdri Azrbaycanda n ox repressiyaya mruz qalan inancl ksimin .Mdafi Komitsinin yaradlmasn vacibliyini vurulayb

**AranNews-** Eldəniz Quliyev, Azərbaycanda ən çox repressiyaya məruz qalan inanclı kəsimin hüquqlarını müdafiəsi ilə ciddi və peşəkarcasına məşğul olmağın zərurətindən danışıb və bu yöndə inanclı kəsim nümayəndələrindən, ziyalılardan və mütərəqqi düşüncəli hüquq .müdafiəçilərindən ibarət Müdafiə Komitəsinin yaradılmasını vacibliyini vurğulayıb

E.Quliyev artıq bu işə başladıqlarını qeyd edib. “Biz, dəyərli Hacı Rövşənlə artıq bu işə başlamışıq. İlk olaraq, MK-nin görəcəyi prioritet işlər və komitənin tərkibi ilə bağlı müzakirələrə start vermişik. Heç kəsə sirr deyil ki, həm yerli hüquq müdafiəçiləri, həm də Beynəlxalq Təşkilatlar inanclı kəsimin müdafiəsinə ikili standartlarla yanaşırlar. Və nədənsə din xadimlərinin- hətta onlar zərrə qədər günühsız olsalar belə- müdafiəsindən çəkinir, haqqı söyləməkdən ehtiyatlanırlar. Belə münasibət nonsensdir və insan hüquq və azadlıqlarının qorunması işində böyük qüsurdu. Yaranacaq Müdafiə Komitəsi bu qüsurdan və bu sayaq yanaşmadan uzaq ”.olmağa, dindarların hüquqlarını peşəkarcasına qorumağa çalışacaqdır